# Nəriman NSSRİMANOV-150

## Agahlıq səltəntinin əmlsaleh sahibi

Bu gecə yuxumda Nəriman Nərimanovu görmüşəm. Yuxumda görürdüm ki, Nəriman Nərimanov barədə filmə baxıram. Bunu onunla əlaqələndirirəm ki, dünən “Ulduzlar sönmür” filminin ssenarisini araşdırdığıma görə belə olmuşdur. Sonra isə yuxumda görürəm ki, Nərimanov barədə film çəkirəm. Mən də bu yuxudan təsirlənərək film çəkməsəm də, məqalə yazmağı qərara aldım.

Hər dəfə birinci sinfi bitirənlər üçün keçirilən, bacımın da iştirak etdiyi “əlifba bayramı”şənliyi zamanı çəkilmiş video-kasetə baxanda Nəriman Nərimanov adına İmişli şəhəri 1 nömrəli məktəbin girişini görürəm(bacım 1-4 cü sinifləri həmin məktəbdə oxumuş, sonradan atam xidməti iş yerini dəyişdiyindən bacım da məktəbini dəyişməyə məcbur olmuşdur). Orada Nəriman Nərimanovun büstü var və bu mənzərəyə baxanda qürur duyuram, özü də çox qürurlanıram.!

Üzeyir Hacıbəyovun həyatına və ev-muzeyinə həsr etdiyim “Arazbarı” hekayəsini bitirmişdim. Canlı-canlı görməsəm də, şəkillərdən görüb-bildiyim Nəriman Nərimanovun ev-muzeyinə bu məqaləm barədə məlumat vermişdim. Muzey də sevə-sevə oxuyacağını bildirmişdi. İndi isə çağlayan ilhamım və araşdırdığım mənbələrə istinadımla həmin ev-muzeyinə həsr etdiyim Azərbaycanın sovet dövrünün ilk vaxtlarının dahi diplomatı olmuş Nəriman Nərimanov barədə məqaləmi təqdim edirəm.

Qeyd edim ki, bu, Azərbaycan SSR-in ilk səhiyyə komissarı, Atatürkü “ispan qripi”ndən xilas edən Abid Alimova həsr edilmiş məqaləm kimi oxucularıma hədiyyəmdir. Çünki, N.Nərimanov həkim, bizim hər zaman, indi isə daha çox ehtiyac duyduğumuz peşənin sahibi idi.

Nəriman Nərimanov 1870-ci ildə Tiflis şəhərində anadan olmuşdur. Ona əslən Cənubi Azərbaycanın Urmiya mahalından olan ulu babasının adını vermişdilər. Böyük qardaşı Salman Nərimanov xatirə dəftərində yazırdı ki, ulu babamız Nəriman XVII əsrdə Kaxetiya valisi I İraklinin sarayında "sabitqədəm", yəni eşik ağası olmuşdur. N.Nərimanovun atası Kərbəlayi Nəcəf xırda ticarətlə məşğul idi. Kərbəlayi Nəcəfin atası Allahverdi bəy XIX əsrdə Zaqafqaziyada tanınmış musiqi xadimlərindən biri olmuşdur. Kərbəlayi Nəcəf tiflisli hacı Məhəmmədqasım Zamanovun qızı Həlimə xanımla evlənmiş, onların 9 övladı; Salman, Mərziyyə, Rza, Rizvan, Fatma, Səkinə, Rizvan (ölən oğlan uşağınınRizvan adınıyeni doğulana qoyublar), Nəriman və Zöhrəbanı dünyaya gəlmişdir.

Salman Nərimanov Nərimanın böyük qardaşı idi. O, 1847-ci ildə Tiflisdə anadan olmuşdu. O, “Səyyarə” və “Səyyareyi-Həqqi” imzası ilə şeirlər yazmağa başlamışdır. Salman Nərimanov Qafqazda ilk azərbaycanlı mürəttib kimi tanınmışdı. O, 1905-1907-ci illərdə Bakı mətbəələrində baş mürəttiblik etməklə bərabər Azərbaycanda milli mürəttiblərin yetişməsində və poliqrafiya sənətinin inkişafında xidmət göstərmişdir. O, məqalələrini “Qoca Salman” imzası ilə yazmışdır. Onun “Səyahətnamə” əsəri hal-hazırda Azərbaycan Milli Elmlər Akademiyasının M.Füzuli adına Əlyazamalar İnstitunda saxlanılır. Eyni zamanda “Həyat” qəzetinin 1906-cı il tarixli nömrələrində onun “Nəmrudlar və Şəddadlar”, “Hami-niku”, “Ağacı içindən qurd yeyər”, “Filankəsə məktub”, “Qissədən hissə”, “Danışmalı ya danışmamalı”, “Açıq məktub”, “Hüriyyətdən haqq ilə istifadə lazımdır”adlı məqalələri dərc edilmişdir. Salman Nərimanov 1907-ci ildə Bakıda vəfat etmişdir.

1890-cı ildə Qori müəllimlər seminariyasını bitirən 20 yaşlı Nərimanov pedoqoji fəaliyyətinə Tiflis quberniyası Borçalı qəzasının Qızılhacılı kənd ibtidai məktəbində rus dili müəllimi kimi öz pedaqoji fəaliyyətinə başlamışdır. Lakin gələcək ədib və dövlət xadiminə yalnız bir tədris ili işləmək müəssər oldu. Maddi çatışmazlıq, imkansızlıq ucbatından məktəb bağlandı və buna görə Nəriman Bakıya getməli oldu. O zamankı Azərbaycan kəndinə məxsus olan cəhətlər-təhsilsizlik, savadsızlıq və fanatizm, hüquqsuzluq və dözülməz istismar məhz bu kənddə bütün dəhşəti ilə Nərimanovun gözü qarşısında canlandı və çox sonralar özünün yazdığı kimi “bəşəriyyətin geridə qalmış hissəsinə qüvvəsi çatdığı qədər kömək etmək” fikri onda ilk dəfə həmin kənddə yarandı. Qızılhacılıda dərs dediyi müddətdə o, "Nadanlıq" əsərini qələmə almağa başlamışdır.

Bakıya köçdükdən sonra Nərimanov çox geniş miqyaslı ictimai-siyasi və pedoqoji fəaliyyətə başlamışdır. Lakin məktəb açmaq ona müəssər olmur və Nərimanov S.M.Qənizadənin köməyi ilə A.İ.Pobedonostsevin 6 sinifli progimnaziyasının hazırlıq sinfinin aşağı şöbəsinə müəllim vəzifəsinə qəbul edilir.Bu məktəb xüsusi məktəb olduğundan orada işləyənlər dövlət qulluqçusu hesab edilmirdilər və dövlət məktəblərində çalışan müəllimlər üçün ayrılmış imtiyazlardan istifadə etmək hüququndan məhrum idilər. Maddi vəziyyətin ağır keçməsinə baxmayaraq Nəriman bu məktəbdə 5 il fəaliyyət göstərir, azərbaycanlı balalarının təhsilə cəlb edilməsinə, şagirdlərin sayının artmasına çalışır.

Bakı şəhər pedoqoji ictimaiyyətinin və əhalinin dərin hörmətini qazanan Nəriman Bakı realnı məktəbinin direktoru tərəfindən 1896-cı ilin əvvəllərində həmin məktəbə Azərbaycan dili müəllimi və sinif mürəbbilərinin köməkçisi vəzifəsinə dəvət edilir. Az sonra, 1896-cı il sentyabrın 1-də Bakı şəhər dumasının qərarı ilə Probedonostsevin progimnaziyasının bazasında Bakı oğlan klassik gimnaziyası təşkil edilir və Nəriman artıq dövlət qulluqçusu vəzifəsinə təsdiq edildiyindən həmin gimnaziyada eyni vəzifəyə dəyişilir. Nəriman Nərimanov burada fasiləsiz olaraq 1902-ci ilədək çalışır və özünü işgüzar, nümunəvi müəllim kimi göstərir. O, yüksək səviyyəli pedaqoji xidmətlərinə görə əvvəlcə medalla, daha sonra üçüncü dərəcəli Müqəddəs Stanislav ordeniilə təltif edilir.

Nərimanovun fəaliyyəti təkcə müəllimliklə məhdudlaşmırdı. O, həm də ictimai xadim kimi Azərbaycanda maarif və mədəniyyətin yayılmasına ciddi təsir göstərirdi. Həmin dövrdə Nərimanov Bakı şəhərinin müxtəlif tədris müəssisələri nəzdində fəaliyyət göstərən bazar günü məktəbləri və axşam kurslarında da pulsuz olaraq dərs deyir, dövrünün digər mütərəqqi ziyalıları ilə birlikdə yaşlı əhalinin savadlanması üçün çalışır, mütərəqqi fikirlərini yayır, bu məktəb və kursların xeyrinə teatr tamaşalarının göstərilməsində iştirak edirdi.

Nərimanov ruspərəst şovinistlərin mövqeyinə qarşı öz mövqeyini də izah edərək deyirdi: ”Türk (azərbaycanlı) uşaqları tək Puşkini deyil, həm də Şekspiri, Şilleri bilməlidir. Ancaq türk (azərbaycanlı) uşağı özünə doğma olan əsl proletar şairi Sabirin odlu-alovlu şeirlərini, xalq şairləri Vaqifin, Zakirin, Vidadinin şeirlərini bildəndən sonra bunları bilməlidir”. N.Nərimanovun tövsiyəsi bu idi ki, “türk (Azərbaycan) dilinin tədrisini azaltmaq təklifini irəli sürənlər özləri bu dili öyrənsinlər ki, Sabiri anlasınlar”.N.Nərimanov Azərbaycan dilini sıxışdıran kommunistlərin mövqeyinin çar Nikolayın mövqeyi ilə üst-üstə düşdüyünü vurğulayaraq onları çəkinmədən şovinist adlandırmışdır.



*Nəriman Nərimanov, 1913*

Nəriman Nərimanov 1894-cü ildə İlk Milli Qiraətxananı da açdırmışdı. Bu o zaman üçün çox böyük bir iş idi. Çünki, xalq ağılın nə olduğunu bilməyən “insanlara” inanırdı.

N.Nərimanov 1902- ci ildə 32 yaşında Odessadakı Novorossiysk İmperator Universitetinin tibb fakültəsinə qəbul olmuş, 1908- ci ildə buranı bitirmişdir. O, 4-cü kursda oxuyarkən “Tibb və İslam” əsərini yazmışdır. Həştərxanda sürgündə olarkən ictimai-siyasi fəaliyyətlə yanaşı həkimliklə də məşğul olmuşdur. Həştərxan “Xalq Universitetləri Cəmiyyəti”nin sədri olan N.Nərimanov Həştərxan quberniyası həkimlərinin II qurultayında “Şurayi - İslam” cəmiyyəti adından çıxış etmişdir.

Nəriman Nərimanovun həyat yoldaşı Gülsüm Nərimanova (Əliyeva) 1898-ci ildə Bakı şəhərində əslən Şamaxıdan olan tacir Mirkazım Əliyevin ailəsində anadan olmuşdur. 1915-ci ildə o,böyük mütəfəkkir, görkəmli dövlət xadimi Nəriman Nərimanovla ailə həyatı qurmuşdur. 1931-1935-ci illərdə isə o,Moskvada Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasının bağçılıq-meyvəçilik fakültəsində və Qaragül qoyunçuluğu institutunda oxumuşdur. Qərbi Sibirdəki iş təcrübəsi əsasında Gülsüm xanım “Çox mühüm yem bazası”, “Silos kampaniyasında kəskin dönüşə nail olmalı”, “Silos üçün qüllələr və xəndəklər uğrunda”, “Kollektivləşmə qadını azadlığa çıxarır” adlı kitabçalar yazmışdır. Bundan başqa o, “Təsadüfi kampaniya” məqaləsini, “Uşaqlar üçün nağıl və hekayələr”, “Bakinskiy raboçi” qəzeti üçün məqalə və “Mənim xatirələrim ”adlı xatirələrini yazıb çap etdirmişdir. Fəal hamilik fəaliyyətinə görə Gülsüm xanım Nərimanova Moskva Hərbi Dairəsinin, Moskva Şəhər Səhiyyə Şöbəsinin, Hərbi Xəstəxana komandanlığının fəxri-fərmanları ilə təltif edilmişdir. Eyni zamanda “Almaniya üzərində qələbəyə görə medalı" ilə təltif olenmuşdur. O, Moskva şəhər Qızıl Ay və Qırmızı Xaç Komitəsinin hamilik komissiyasının üzvü olmuş, “SSRİ-nin sanitar mühafizəsi əlaçısı” döş nişanı ilə mükafatlandırılmışdır. Gülsüm xanım Nərimanova 1953-cü ildə vəfat etmiş, Moskvadakı Vaqankovskoye qəbiristanlığında dəfn edilmişdir.

1914-cü ildən Nərimanov Bakının “Qara şəhər” müalicəxanasında pulsuz işləmiş, neft mədənlərində işləyən xəstə fəhlələri və xəstəxanaya yaxın kəndlərin camaatını müalicə etmiş, hətta öz mənzilində də yorulmaq bilmədən xəstələri qəbul və pulsuz müalicə etmişdir.

1909- cu ildən 1918-ci ilə qədər N.Nərimanov Həştərxanda və Bakıda “Vəba”, “Qadınlar aləmi”, “Traxom” və başqa bu kimi faydalı elmi-publisistik mövzularda mühazirələr oxumuş, məqalələr və kitabçalar çap etdirmişdir.

N.Nərimanov hər mühazirədən sonra “Tibb və islam” kitabçasını yoxsul fəhlələr arasında yaymaq üçün pulsuz paylayırdı. (Bax: həmin illərdə Həştərxanda nəşr olunan “Burhani-tərəqqi”, “İdel”, “Astraxanskiy kray” və s. eləcə də Bakıda nəşr olunan “İqbal”, “Baku”, “Sədayi-həqq” və s qəzetlər) Bu elmi-kütləvi mühazirələr ən çox yayılan vəba, çiçək, traxoma, malyariya, revmatizm, mədə-bağırsaq xəstəliklərinə qarşı təcili profilaktik tədbirlərin görülməsində böyük rol oynayırdı.

1918-ci ildə Nərimanov Bakı şəhər təsərrüfatı komissarı kimi şəhərin sanitar vəziyyəti, eləcə də xəstəxanaların vəziyyəti ilə bağlı bir çox lazımı tədbirlər görmüşdür.

N.Nərimanov “Qara şəhər”də işləməyə başlayandan sonra onun ilk yarımillik fəaliyyəti haqqında Bakı tibb-sanitariya bürosunun hesabatında göstərilirdi ki, doktor çox gərgin işləyir, qəbul vaxtını məhdudlaşdırmırdı. Bir gündə onun qəbuluna 50-dən 80-ə kimi xəstə gəlirdi və onlara hər cür tibbi yardım göstərilirdi. 1914-cü ilin altı ayı ərzində Nərimanov 11765 xəstə qəbul etmiş, 2441 nəfərə cərrahi yardım göstərmiş, 9418 resept yazmışdır.

Onun Moskvada- SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri işləyərkən Rusiya Qırmızı Xaç cəmiyyətinin sədri Z.Solovyevə və RSFSR Xalq səhiyyə komissarı N.A.Semaşkoya göndərdiyi məktublar bunu sübut edir. Həmin məktublarda o, Azərbaycan əhalisinin tibb və səhiyyə sahəsindəki ehtiyaclarından danışır və Azərbaycanın cərrahiyyə, aptek alətləri, müxtəlif medikamentlə, xüsusilə həmin dövrdə çox ehtiyac duyulan malyariya əleyhinə kinə ilə təmin edilməsini xahiş edirdi.

N.Nərimanovun Dağlıq Qarabağ probleminə münasibəti birmənalı olmuşdur. 1920-ci ildə Dağlıq Qarabağda ermənilərin keçirdiyi “qurultayın” qərarının nəticəsiz qalmasını N.Nərimanovun Ermənistana verdiyi notanın nəticəsi kimi qiymətləndirmək olar. 1920-ci il iyulun 10-da N.Nərimanov Moskvaya RK(b)P MK-ya “Dağlıq Qarabağda vəziyyət” haqqında teleqram vurmuşdur. Teleqram bu sözlərlə bitirdi: “Müsəlman əhalisi Moskvanın qəflətən köhnə mövqeyə qayıtmasını və ermənipərəst siyasət yürütməyini sovet hökumətinin Azərbaycanın sərhədlərini qorumaq iqtidarında olmaması və xainlik kimi qiymətləndirəcəkdir”.

***(Davamı var)***



***Sevindik NƏSİBOĞLU***